# İbrahim Abdulla oğlu Eminb�yli

Müəllif: Vüqar Həsənbəyli
06.11.2012 02:15



Eminbəyli İbrahim Abdulla oğlu 1894-cü ildə Gəncə şəhərində anadan olmuşdur. "Hümmət" Təşkilatının Gəncə şöbəsində fəaliyyət göstərmişdir. İ.Eminbəyli 1920-ci ildə Gəncə şəhərində Quberniya Komissarı daha sonra Gəncə Qəza İcraiyyə Komitəsinin məsul katibi, sonra Bakıda nəşr olunan "Kommunist" qəzetinin redaktoru və bir müddət "Azərnəşr"in direktoru olmuşdur. İbrahim Eminbəyli həmçinin 1937-ci ildə Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin rəisi çalışmışdır. İ.Eminbəyli Azərbaycan K(b)P MK-nın üzvü olub.

Eminbəyli İbrahim Abdulla oğlu 12 oktyabr 1937-ci ildə SSRİ Ali Məhkəmə Hərbi Kollegiyanın Səyyar Sessiyası tərəfindən əksinqilabi trotski-zinoyevçi fəaliyyətinə görə I kateqoriya ilə həbs edilmiş və 13 oktyabr 1937-ci ildə Nargin adasında güllələnmişdir.

1955-ci il dekabrın 10-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarına görə 1937-ci il oktyabrın 12-də Hərbi Kollegiyanın çıxardığı hökm ləğv edilmişdir.

İbrahim Eminbəylinin həyat yoldaşı Firuzə Məmməd-Tağı qızı 1905-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Bakı şəhəri Zamkovaya küçəsi, ev 38 ünvanında yaşamışdır.

Eminbəyli Firuzə Məmməd-Tağı qızı SSRİ MİK-nin 4 iyul 1934-cü il qərarı əsas tutularaq vətən xaininin həyat yoldaşı kimi SSRİ XDİK-nin 9 dekabr 1937-ci il qərarına əsasən 14 oktyabr 1937-ci il tarixdən hesablanmaqla cəzasını İslah-Əmək Düşərgəsində çəkməklə 8 il müddətinə

azadlıqdan məhrum edilmişdir. Uşaqları qohumu Zəhra Hadi qızının himayəsinə verilmişdir.

Ailə tərkibi: oğlanları Nazim - 15 yaş, Yavuz - 9 yaş, qızı Nuriyyə - 13 yaş.

Firuzə Eminbəyli sürgündən 1946-cı ildə qayıtmışdır. Zaqafqaziya Hərbi Dairəsi Hərbi Tribunalının 19 oktyabr 1955-ci il qərarına əsasən Eminbəyli Firuzə Məmməd-Tağı qızına bəraət verilmişdir.